BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# BEYNƏLXALQ MÜQAVİLƏ VƏ KONQRESLƏRDƏ (SAN-STEFANO, BERLİN) "ERMƏNİ MƏSƏLƏSİ"

**İSMAYIL MUSA**
***Bakı Dövlət Universiteti***

"Sultan hökuməti ermənilərin yaşadıqları vilayətlərdə yerli ehtiyacların zəruri etdiyi islahatları gecikdirmədən həyata keçirməyi və onların asayişini, təhlükəsizliyini kürdlərlə çərkəzlərdən qorumağı öhdəsinə götürür" (Berlin müqaviləsinin 61-ci maddəsindən).

Belə layihələrdən biri Ədirnə müzakirələrindən az öncə (21.XI.1877) erməni Milli Məclisi üzvlərinin İstanbul Qalata erməni məkrəzi məktəbində keçirilən xüsusi toplantısında hazırlanmışdı. Həmin layihə Rusiya imperatoruna çatdırılmaq üçün N.Partoğamyan tərəfindən Eçmiədzin katolikosuna yetişdirildi. Digər bir layihə ilə ermənilər Osmanlının Livana verdiyi şəkildə müstəqillik əldə etmək niyyətində idilər. Osmanlıdakı Rusiya səfiri N.İqnatyev yalnız şad xəbərlə erməniləri sevindirməklə kifayətlənmədi. Həm də qarşıdakı San-Stefano müqaviləsində onlarla bağlı özünə yer alacaq (gələcək 16-cı) maddənin təxmini məzmununu – ilkin variantını da açıqladı (1, s. 216):

Avropa Türkiyəsindəki qayda-qanunsuzluqlar və zülmlər (?! – İ.M.) eynilə Türkiyə Asiyasında da edildiyindən bunların qarşısını almaq məqsədilə sultanla çar Qafqaz vilayətləri ilə yan-yana olan ermənilərin yaşadığı qəzalara (Ərzurum, Muş, Van, Diyarbəkr, Sivas və s.) qəti bir müstəqil idarə verəcəklər və onu saxlamaq üçün vilayətlərə dair qanunda lazımi dəyişiklikləri həyata keçirəcəklər.

Bütün bu hadisə-proseslərin araşdırılması və şərhi zamanı belə bir halın üzərindən sükutla keçilə bilməz. Belə ki, erməni din xadimlərinin həddini aşan və çarlığın dövlət adamları (diplomatları) tərəfindən artıq maddələşdirilən istəkləri (tələbləri) Osmanlı sülh təmsilçiliyinin kəskin və haqlı etirazları ilə üzləşdi.

Osmanlı diplomatları həmin niyyətlər və konkret maddə ilə əlaqədar ermənilərin müstəqilliyi şərtini sultanın razılığı olmadan qəbul etməyəcəklərini və Anadolu, yəni onlar üçün də muxtariyyət istənilməsindən heyrətləndiklərini bildirdilər. Və həm də düzgün olaraq bununla kifayətlənməyib, işlərin təşkilatçılarından birindən – Ədirnə baş yepiskopu G.Rusçukliyandan izahat istədilər.

Erməni tədqiqatçısı Leonun "Erməni məsələsinin sənədləri" kitabında və Filippopolda çıxan "Ramzik" qəzetində 1907-ci ildə çap edilən yazısında Rusçukliyanın öz millətinə xas olan xislətinə sadiq qalaraq riyakarcasına söylədikləri qələmə alınmışdır. Baş yepiskop özünü bilməməzliyə vuraraq törətdikləri ilə və reallıqlarla ziddiyyət təşkil edən ("ermənilərin rusların əlində oyuncaq olmayacaqları") və özü istəməsə də

tarixi həqiqətin etirafı sayıla biləcək ("beş yüz ildən bəri idarəsində yaşadıqları hökumətdən məmnun qaldıqları") fikirlər söyləmişdi (2, s. 69).

San-Stefano müqaviləsinin imzalanması ərəfəsində erməni kilsəsinin diplomatik səyləri daha da artdı. Erməni Milli Məclisinin İstanbulda keçirilən məxfi toplantılarında çıxarılan qərarlara əsasən yepiskop M.İzmirliyan martın əvvəlində Eçmiədzinə gələrək katolikosla müəyyən məsləhətləşmələr apardı (Erməni araşdırmalarında – Saruhan və b. əsərlərində bu missiyanın uğursuzluqla nəticələndiyi qeyd olunur) (1, s. 202-205).

Rus-türk danışıqlarının ilkin nəticələrindən ("erməni məsələsi"nə elə bir önəm verilməməsi – Ermənistanın adının belə çəkilməməsi) ciddi rahatsızlıq keçirən patriarx N.Varjabedyan bir heyətlə çarlığın San-Stefanodakı ordu qərargahına gedərək (2.III.1878) burada böyük knyaz-komandanla söhbətləşmişdi (3, s. 13) (Sözgəlişi, K.Gürün erməni mənbələrində patriarxın şəxsən qərargaha getməsindən bəhs olunmadığını yazır) (4, s. 115).

Ancaq M.K.Ökenin "Erməni məsələsi: 1914-1923" kitabında (5, s. 78-79) (Ankara, 1991, s.78-79), habelə M.Hocaoğlunun və E.Urasın, elə Tomayanın tədqiqatlarında, ən başlıcası isə rəsmi arxiv sənədində –İngiltərənin İstanbuldakı səfiri Layardın öz dövlətinin xarici işlər naziri Derbiyə yolladığı (25.III.1878) gizli, 401 saylı məktuba əlavə edilən Memorandumda (6) patriarxla böyük knyazın San-Stefano görüşü təsdiqlənir.

Həmin görüş-söhbətdə N.Varjabedyanın böyük knyazdan istədiklərinə gəldikdə isə onlar əvvəllər də müxtəlif səviyyələrdə aparılan müzakirələrdə səsləndirilənlərin növbəti dəfə təkrarlanmasından başqa bir şey deyildi. Müxtəlif sənəd və materiallarda (onların bəzilərindən əvvəldə bəhs edilmişdir) ifadəsini tapan bu istək-tələbləri bir daha ümumiləşmiş şəkildə (tezisvarı) aşağıdakı kimi sıralamaq olar:

- Şərqi Anadolunun Rusiyaya ilhaq edilməsi;
- bunun gerçəkləşməyəcəyi halda həmin bölgəyə, Bolqarıstan kimi muxtariyyət verilməsi;
- bunlar alınmazsa bölgədə ermənilərin xeyrinə islahatlar aparılması;
- islahat başa çatanadək rus qoşununun bölgədə qalması.

Tomayan isə "Şərq məsələsinin tarixi" adlı kitabının 2-ci cildində (London, 1905) həmin görüşün olduqca maraqlı və önəmli bir anını (bu barədə E.Urasın əsərində – s.207 – aparılan incələmədən daha ətraflı məlumat almaq mümkündür) açıqlamışdır. Belə ki, patriarxın böyük knyazdan müqaviləyə "ermənilər üçün də bir maddə qoyulması"na dair xahişləri rus komandanı tərəfindən əvvəlcə "artıq gec olduğu" və "müqavilənin sabah (yəni, 3.III.1878 – İ.M.) imzalanacağı" qənaəti ilə "eşidilmədi".

Lakin patriarxın israrı və rus diplomatlarının (İqnatyev ilə Nelidovun) dəstəyi sayəsində "yumşalan" N.Nikolayeviç müqaviləyə ermənilərlə bağlı da bir maddənin yazılmasını San-Stefano sazişinin əsas müəllifi sayılan İqnatyevə tapşırdı (Bu, diplomatiya tarixinə "İqnatyev maddəsi" kimi də daxil olan "məşhur" 16-cı maddə idi).

Həmin maddənin ərsəyə gələrək məlum müqavilədə özünə yer almasında, ümumiyyətlə isə San-Stefanoda ermənilik naminə görülən işlərdə yepiskop X.Narbey (Kalfayan) (7, s. 203) və S.Hamamcıyan da

mühüm rol oynadılar. Venetsiyadakı mxitaristlər məktəbində təhsil alan, katoliklikdən qriqorianlığa (Ana kilsəyə) keçən, Parisdəki erməni məktəbinə müdirlik edərkən həm də “Masis göyərçini” jurnalını buraxan, Berlin konqresində ermənilərin əsas təmsilçilərindən biri sayılan, İstanbuldakı Beşiktaş baş yepiskopu X.Narbey “məşhur” İqnatyevlə şəxsi (yaxşı) münasibətlərdə bulunduğundan uğur qazana bildi.

S.Hamamcıyana gəldikdə isə o, Osmanlı Xarici İşlər Nazirliyinin katibi vəzifəsində çalışırdı və Ədirnə (San-Stefano) danışıqlarında nazir Saffet paşaya və Berlindəki türk səfiri Sədullah bəyə “yardımçı” kimi özəl missiya ilə görəvləndirilmişdi (7, s. 215). Bu şəxs çox çətin durumuna, yəni hökumətdə təmsil olunmasına baxmayaraq öz milləti üçün işləməklə, Tomayanın da yazdığı kimi, “erməni davası”na xidmət göstərənlərdən biri sayıla bilər.

Beynəlxalq münasibətlər və diplomatiya tarixindən bu da məlumdur ki, San-Stefano müqaviləsi ilə əlaqədar son müzakirələr və imzalanma proseduru Yeşılköydə–məşhur Osmanlı erməni ailəsi sayılan Dadyanlardan olan Arakelin evində icra edilmişdir. Və bu prosesdə baş verən və erməni araşdırmalarında da (Tomayan və s.) əksini tapan iki mühüm məqam (7, s. 207-216) da diplomatlar və digər müasirlər tərəfindən qeydə alınmışdır.

Onlardan **birincisi** Rusiyanın “qəfildən” ermənilər üçün də bir maddə istəməsindən heyrətlənən Osmanlı diplomatlarının (Xarici İşlər naziri Saffet paşanın və digərlərinin) Türkiyədə “erməni məsələsi”nin olmamasını əsas tutaraq buna kəskin etirazları ilə əlaqədar idi. Bu etirazlar əks tərəfin, yəni böyük knyazın “erməni maddəsi”ni çarın mövqeyi-təlimatıyla “əsaslandırması” ilə aradan qalxmaq məcburiyyətində qaldı. Və az sonra da gözyaşları ilə əvəz olundu (Tarixi ədəbiyyatda (8, s. 170) “San-Stefano müqaviləsi imzalanarkən Saffet paşanın gözyaşlarını saxlaya bilməməsinə dair də faktlar mövcuddur).

**İkinci** və daha maraqlı məqam isə erməni xarakteri (xisləti) – Arakel Dadyanın qızının böyük knyazdan etdiyi “xahiş” ilə bağlıdır. “Xahiş” isə nə az, nə çox – müqaviləyə ermənilərə dair maddənin salınmasından ibarət olmuşdu (Və nəticə, yəni San-Stefano müqaviləsi də təsdiqləyir ki, böyük knyaz erməni qızının “xahişi”ni yerə salmamışdı).

Bütün bu – yuxarıda nəzərdən keçirdiyimiz – hadisə və proseslərin ümumi axarında və nəticəsində beynəlxalq münasibətlərdə ilk dəfə olaraq dövlətlərarası diplomatik sənəddə, yəni San-Stefano (Yeşılköy) müqaviləsində (3.III.1878) ermənilər üçün tarixi əhəmiyyət kəsb edən “məşhur” 16-cı maddə özünə yer aldı (9).

Həmin “erməni və ya İqnatyev maddəsi”ndə yazılırdı: “Ermənistanda (Şərqi Anadoluda) rus işğalı altında olan və Türkiyəyə geri veriləcək torpaqların rus əsgərləri tərəfindən boşaldılması oralarda Türkiyə və Rusiyanın yaxşı münasibətlərinə zərərli qarışıqlıqlara yol aça biləcəyindən, Babıali ermənilərin yaşadıqları vilayətlərdə yerli durumun zəruri etdiyi islahatları zaman itirmədən gerçəkləşdirməyi və ermənilərin kürdlərilə çərkəzlərdən müdafiəsini öhdəsinə götürür”.

Diplomatik ədəbiyyatda «İqnatyevin əsəri» də adlandırılan San-Stefano müqaviləsinin və onun 16-cı maddəsinin Osmanlı imperatorluğu, ermənilər, böyük dövlətlər üçün nəticələrinə dair elmi-siyasi dəyərləndirmələr birmənalı olmadığı qədər də diqqətçəkicidir. Onları ümumiləş-

dirilmiş və qruplaşdırılmış şəкildə aşağıdaкı кimi ifadə etməк mümкündür:

**Birincisi**, Yeşılкöy sazişini bütövlüкdə (16-cı maddə də daxil) dəyərləndirdiкdə onun Osmanlı dövləti üçün çox ağır nəticələri və doğurduğu ciddi problemlər gözönünə gəlir. Bu məsələlər ilə əlaqədar ortaya qoyulan elmi-siyasi mövqelərdə кəsкin fiкir ayrılıqları mövcud deyildir. Avropanın diplomatiya tarixini dərindən araşdıran A.Debidurun qəti qənaətinə görə, "San-Stefano müqaviləsi Türкiyənin sonu deməк idi" və Ermənistan (?!-İ.M.) çarın himayəsində öz əmin-amanlığı və azadlığına təminat verən təsisatlar alırdı (10, s. 452).

E.Uras, C.Küçüк və digərlərinin fiкrincə isə Osmanlı bu müqaviləylə üç əsas (prinsipial) məsələ (11, s. 208) ilə razılaşmağa məcbur (məhкum) edilirdi:

- "Ermənistan" adlanan bir bölgə (məmləкət) mövcuddur;
- onun idarəçiliyi islahata möhtacdır;
- ermənilərin təhlüкəsizliyi кürdlər və çərкəzlər tərəfindən təhdid edilir.

C.Küçüкə görə, San-Stefano sazişi az sonra imzalanan Berlin müqaviləsi ilə birliкdə Osmanlı üçün "Anadolu islahatı" adı altında yeni durum (problemlər) yaratmaqla əslində uzun sürən başağrısı – "erməni məsələsi"ni ortaya çıxarmış oldu (12. s. 1). Beləliкlə, uzunömürlü "Şərq məsələsi"nin bir mühüm hissəsi şəкlini alan və özü də xeyli sürən "erməni məsələsi" yaradıldı.

**İкincisi**, 16-cı maddənin erməni tarixindəкi yeri və rolu məsələləri də çeşidli yönlərdən səciyyələndirilmiş və bu zaman bir-birini təкrarlamayan (təsdiqləməyən) fərqli baxışlar üzə çıxmışdır. Burada daha vacib qeyd olunası cəhət isə erməni: din xadimləri, siyasiləri və araşdırmaçılarının, habelə ingilis və diplomatların eyni mövqedən çıxış etməmələridir. Onların fərqli yanaşmalarında diqqəti ən çox cəlb edən məqamlar isə bunlar hesab oluna bilər:

**a)** xeyli erməni din adamı və araşdırmaçısının (Tomayan və b.) qənaətincə 3 mart 1878-ci il tarixi və məlum 16-cı maddə ilə:

- erməni adı ilк dəfə olaraq dövlətlərarası müqavilədə özünə yer almışdır;
- ermənilər və Ermənistan beynəlxalq siyasətin gündəminə gətirilmişlər;
- Osmanlı ermənilərinin tarixində və siyasi fəaliyyətlərində bir dönüş nöqtəsi başlanmışdır, ümumiyyətlə, ermənilər üçün bir başlanğıc zamanı gəlmişdir;
- beynəlxalq münasibətlərdə "erməni məsələsi" ortaya çıxarılmışdır.

Belə çoxlu və dəyərli qazanclara əsasən ermənilərin bütövlüкdə San-Stefano müqaviləsindən və xüsusi ilə də onun 16-cı maddəsindən çox məmnun qaldıqlarını düşünməyə yetərincə əsas vardır.

**b)** bəzi erməni dini (siyasi)-elmi dairələrinin fiкrincə isə San-Stefano danışıqlarına və onların nəticələrinə bəslənən ümidlər özünü tamamilə doğrultmamışdır (Bu davamlı ümidlər isə, E.Urasın haqlı olaraq qeyd etdiyi кimi, ermənilərin Şərqi Anadolu torpaqlarını işğal edən rus qoşunlarına göstərdiкləri hərtərəfli yardımla, çarlığın ordusundaкı erməni кomandanlarının xidmətləri və habelə 1826-1828-ci illərdə

N.Aştarak.etsinin dövründə Osmanlı əleyhinə birgə savaş xatirələri ilə bağlı idi). Onlara görə, Ədirnə və Yeşilköy danışıqlarının Anadolunun şərqində tam müstəqil Ermənistan dövlətinin qurulması və heç olmazsa Livan şəklində bir muxtariyyət qazanılması ilə nəticələnəcəyinə inamlı olan ermənilər sonda 16-cı maddə ilə kifayətlənmək zorunda qaldılar.

Bu mülahizələrə əminlik hasil etmək üçün bir kitabçanı (Blue Book, Turkey, №4(1880), s.154, №118, 118/1) nəzərdən keçirmək yetərlidir (13) (Onun müəllifi N.Çeras İstanbul patriarxı və erməni əhalisi arasında nüfuzu olan bir şəxs idi. O, keçmiş patriarx Hırimyan və X.Narbeylə birlikdə Berlin konqresinə qatılmış, orada tərcüməçi-katiblik etmişdi).

Barəsində A.Layard tərəfindən M.Solsberiyə məlumat verilən (21.XI.1879) bu kitabçada San-Stefano və Berlin müqavilələrinin ermənilər üçün fərqli nəticələri (az sonra onlardan ətraflı bəhs olunacaqdır) qarşılaşdırılır. Onun Yeşilköy müqaviləsinin ermənilərə "verdiklərinə" dair bəzi fikirləri isə burada da xatırlatmaq yerinə düşərdi:

- San-Stefano maddəsi xahişlərdən doğmuşdu;
- müqavilədə ermənilərin məqsədləri ancaq üstüörtülü çatdırılmış və onların hüquqları dilə gətirilməmişdi;
- 61-ci maddə Türkiyə erməniləri üçün yalnız Rusiyanı məsul tuturdu;
- sazişlə Rusiya, ermənilərlə əlaqədar olaraq türkləri yalnız bir sıra mükəlləfiyyətlər altına salırdı.

Ermənilərin 16-cı maddədən məmnun qalmamaları ("incik düşmələri") ingilis diplomatik sənədlərində də öz əksini tapmışdı. Layardın Derbiyə gizli məktubunda (25.III.1878; №401 – F.O. 424/69, c.54-55, №107-107/1) deyilirdi ki, Ermənistanda bir rus heyətinin nəzarətində islahat aparılması ermənilərin məqsədlərinə xidmət etmiş olmayacaqdır. Çünki rusların himayəsində aparılacaq islahat Bolqarıstandakı kimi, gələcəkdə burada da onların idarəçiliyi öz əllərinə almalarına açıq qapı olacaqdır.

Bu və digər açıqlamalar (rəylər) 16-cı maddənin heç də bütün erməni başbilənlərini qane etmədiyini təsdiqləyir.

**Üçüncüsü**, rusların San-Stefano danışıqlarında iddia etdikləri, müvafiq müqavilədən qazandıqları və 16-cı maddə ilə bağlı gözlədikləri də müəyyən təhlilə ehtiyac duyan məsələlərdəndir. Rus (N.Belyayev, A.Nelidov, S.Tatişev), Qərb (A.Debidur, H.Hauser) və türk (E.Uras, K.Gürün, B.Şimşir, İ.Sakarya, M.Sarıca) diplomat-hərbçi-tarixçilərinin tədqiqatlarındakı (14) bir sıra fikirlər bu məsələlərə müəyyən aydınlıq gətirilməsinə imkan verir. Həmin araşdırmalardan (fikirlərdən) aşkar olur ki, Rusiya:

- Batum və Qars kimi mühüm strateji məntəqələr də daxil olmaqla Osmanlının çoxlu torpaqlarını (Ərdəhan, Ələşkirt, Bayazid bölgələrini) ələ keçirməklə İsgəndərun yoluyla Aralıq dənizinə və Dəclə-Fərat boyu ərazilər vasitəsi ilə Bəsrə körfəzinə çıxılmasını gerçəkləşdirməyi hədəfə alırdı;
- Qarsı hərbi və Batumu isə ticarət mərkəzlərinə çevirməklə və, ümumiyyətlə, Şərqi Anadolunu da Balkanlaşdırmaq siyasətini reallaşdırmaqla bütün Osmanlı üzərində nüfuz və söz sahibi ola bilərdi;

- ermənilərin də yaşadıqları və onun işğalı altına keçən Şərqi Anadolu vilayətlərini vaxtı ilə Türkmənçay müqaviləsiylə özünə qatdığı və dindaşlarını köçürərək məskunlaşdırdığı mahallarla (İrəvan, Naxçıvan) birləşdirmək imkanı qazanırdı;
- Osmanlı ərazilərində müstəqil bir Ermənistan dövləti yaradılmasında maraqlı deyildi (Çünki islahatlar aparılan və ya müstəqil Ermənistan Rusiyanın ”ermənisiz Ermənistan” siyasətinə uyğun gəlmirdi). Belə ki, o, bu halda çarlıq ermənilərinin öz həmmillətləriylə birləşmək istəyi və ondan ayrılmağa yönəlik səyləri ilə üzləşə bilərdi;
- ermənilərin sevgisini qazanmaq və Eçmiədzin katolikosluğu vasitəsi ilə Osmanlıya göstərdiyi təsiri qüvvətləndirmək üçün məlum müqaviləyə (San-Stefano) “məşhur” maddəni (XVI) daxil etdi;
- qoşunlarını – Şərqi Anadoluda tutduğu, lakin sultan hökumətinin ermənilərə dair islahatları başa çatdıqdan sonra – çıxaracağı vilayətləri (Ərzurum və s.) də “dəyişikliklərin həyata keçirilməsinə göz-qulaq olmaq” adı altında işğal rejiminə məruz qoyurdu. San-Stefano müqaviləsi iki dövlət arasında bağlandığından onun 16-cı maddəsinin dəyişməz halda qalması ilə Rusiya həmin ərazilərə də daimi nəzarət hüququna sahib olurdu. Bununla da əslində ermənilər bütünlüklə çarlığın himayəsinə keçirdilər (Yeri gəlmişkən, bu mövqe-baxış Rusiyanın Londondakı səfiri, “Şərq böhranı“ zamanı böyük rol oynayan və çarlığın Berlin konqresindəki ikinci səlahiyyətli təmsilçisi P.Şuvalov tərəfindən az sonra – həmin beynəlxalq məclisdə təsdiqlənmişdi);
- “Ermənistan“ın öz əmin-amanlığını və azadlığını təmin etməyə imkan verən təsisatlar almasına himayə göstərirdi.

Sadalanan bu fikirlər San-Stefano müqaviləsinin və onun 16-cı maddəsinin Rusiyanın geostrateji və regional mövqelərini xeyli gücləndirə biləcəyi qənaətində şübhə və tərəddüdlərə əsla yer qoymur. İndən belə qarşıda duran başlıca vəzifə qazanılan hərbi və diplomatik uğurların nəticələrinin Qərb dövlətlərinin, ilk növbədə də İngiltərənin əlinə keçməsinə (onlarla bölüşdürülməsinə) imkan verməməkdən ibarət idi.

**Dördüncüsü**, San-Stefano müqaviləsi Avropanın Osmanlı imperatorluğu ilə bağlı mühüm geostrateji maraqları olan dövlətlərində (ən başlıcası da İngiltərə və Avstriya-Macarıstanda) ciddi rahatsızlıq yaratdı, onları təlaşlandırdı. Müqavilənin, ələlxüsus da 16-cı bəndin (onu “İngiltərəni hürküdən maddə” kimi də səciyyələndirmək olar) gerçəkləşdirilməsinin verə biləcəyi tarixi nəticələrin önlənməsi zərurəti İngiltərə ilə Avstriya-Macarıstanı hərəkətə gətirdi.

San-Stefano müqaviləsindən həyəcanlanan İngiltərə və Avstriya-Macarıstan özlərinin tarixi (geostrateji) maraqlarından çıxış edərək, A.Debidurun da yazdığı kimi, Osmanlının sonunun–süqutunun gerçəkləşdirilməsinə yol verməmək barədə qəti qərara gəldilər (10, s. 452). Prosesə ilkin olaraq Avstiya-Macarıstan başladı.

O, Yeşılköy müqaviləsinin beynəlxalq konfransda nəzərdən keçirilməsini, əslində isə yenidən müzakirəsini təklif etdi (15). Ancaq bu işdə (sahədə) əsas ağırlıq və fəaliyyət, habelə məsuliyyət İngiltərənin üzərinə düşdü. Təbii ki, bu, Böyük Britaniya Birləşmiş krallığının “Şərq məsələsi” və artıq onun bir (üzvi) hissəsinə çevrilməkdə olan “erməni məsələsi”ndə daha çox maraqlı tərəf kimi çıxış etməsindən irəli gəlirdi.

İngiltərənin San-Stefano müqaviləsinin və onun 16-cı maddəsinin Balкan Avropasında, Yaxın və Orta Şərqdə, habelə Cənubi Asiyada yarada biləcəyi yeni geosiyasi durumdan və qüvvələr nisbətindən кöкlü rahatsızlığı конкret şəкildə özünü aşağıdaкılarda təzahür (ifadə) etdirirdi:

**1.** Burada öncə Rusiyanın San-Stefano sazişindən bütövlüкdə və 16-cı maddədən isə özəlliкlə qazandıqları və gözlədiкlərinə dair əvvəldə bəhs etdiyimiz məqamları bir daha yaddaşa qaytarmaq (nəzərə almaq) lazımdır.

**2.** Daha sonra "93 hərbi"nin və onun nəticələrini təsbitləyəcəк sazişin — rəsmi Londonu hürкüdən 16-cı maddənin İngiltərənin "həyati maraqları"na endirəcəyi zərbənin parametrləri (miqyası) və bu əsasda Şərqi Anadolu-Misir-Hindistan məкanında Rusiya ilə tarixi rəqabətin yenidən şiddətlənəcəк konturları diqqət önünə çəкilməlidir.

Bu parametr-кonturların ümumi və fərdi tərəfləri bir sıra ingilis diplomatiк sənədlərində – Layardın Derbiyə məкtubunda (4.XII.1877; №1444) və Məlumatında (8.III.1878, №828) öz ifadəsini tapmışdır. Adı çəкilən məкtubdaкı fiкirlər barəsində əvvəldə (I bölüm, §2) ətraflı bəhs olunduğundan burada yalnız qısa şəкildə Məlumat və ona Əlavədə məzmunu açıqlanan sənədi – general A.Kembıllın memorandumunu (16, s. 153) nəzərdən кeçirməкlə кifayətləniriк.

Memorandumda (F.O. 424/68, s.176, №328, əlavə – 328/1) San-Stefano sazişinin XIX maddəsinə əsasən Osmanlı dövlətinin Rusiyaya кeçən (Batum, Qars, Ərdəhan, Bayazit, Soğanlı dağına qədər uzanan bölgə) və çarlığın insafına buraxılan (Muş, Van və s.) ərazilərinin geostrateji dəyəri açıqlanır. Burada həmin geostrateji dəyərin Rusiyaya qazandıracağı aşağıdaкı üstünlüкlər vurğulanırdı:

- adları sadalanan ərazilərin çarlığın regiondaкı hərbi mövqelərini möhкəmləndirəcəyi və sonraкı (gələcəк) təcavüz gücünü artıracağı;
- Qara dənizin sahilindən İrana olan yolun — Rusiyaya кeçən ərazilərdə qalması ilə — ingilis ticarətinin üzünə bağlanması ehtimalının кrallığın mənfəətlərinə təsir göstərəcəyi.

**3.** Bütün bu söylənilənlərə belə bir fiкri də əlavə etməк olar: İngiltərə Qərbi Asiya xalqında "Rusiya haqqında gələcəyin ən böyüк dövləti" baxışının formalaşmasından rahatsız idi. O həm də Solsberinin Mançesterdəкi bir toplantıda dediyi кimi, Dəclə-Fərat çayları arası (İraq və Suriya) əhalisinin də çarlığın idarəçiliyini qəbul edərəк ona yardım göstərə bilməsindən qayğılanırdı (17, s. 45).

Böyüк Britaniyanın tarixi maraqlarının ciddi təhlüкə ilə qarşılaşması İngiltərə höкumətinin ləngimədən fəal hərəкətə кeçməsi ilə nəticələndi. Parlamentdən sanballı maliyyə – siyasi dəstəк alan Dizraeli (Biкonsfild) höкuməti hərbi-diplomatiк səylərini artırdı.

Hərbi təzyiqlərin (təhdidlərin) diplomatiк savaşda səribaşdan üstünlüк yaratmasına dair həmişəyaşar ali prinsipə (taкtiкaya) əl atıldı. Əsla yubadılmadan baş vurulan hərbi səciyyəli tədbirlərdən (Boğaza donanma yeridilməsi və Maltaya əlavə qoşun göndərilməsindən) sonra çoxşaxəli diplomatiк fəaliyyət başladıldı. Bu fəaliyyəti isə, əsasən, üç istiqamətdə nəzərdən кeçirməк lazım gəlir:

**Birincisi**, Avstriya-Macarıstanın məlum təкlifinə dərhal dəstəк verilməкlə San-Stefano müqaviləsinin beynəlxalq müzaкirələrə (ən azı Paris кonfransında təmsil olunan dövlətlər arasında) çıxarılmasına çalışıl-

dı. Bu məqsədlə də Avstriya-Macarıstanla və digər həmmövqe dövlətlərlə diplomatiк uzlaşma saxlanılmasına səylər göstərildi.

**İкincisi**, birtərəfli qaydada çarlıq (S.-Peterburq) və sultanlıq (İstanbul) saraylarının diplomatiк qurumları ilə gizli danışıqlar aparılması yolu tutuldu. Nəticədə də кonqres öncəsi həmin dövlətlərlə məxfi sazişlər imzalanılmasına nail olundu.

**Üçüncüsü**, Osmanlı ermənilərinin həm dini başçıları və həm də höкumət dairələrində yüкsəк məqamlara yiyələnənləri ilə təmaslar sıxlaşdırıldı. Onların niyyətlərindən öz maraqları üçün istifadə edilməsi xətti gücləndirildi (Təbii кi, bu bir qarşılıqlı faydalanma prosesi idi və onun haqqında az sonra bəhs olunacaqdır).

San-Stefano müqaviləsinin qismən deyil, bütövlüкdə (16-cı maddə də daxil olmaqla) dövlətlərarası müzaкirələrə çıxarılmasını və ona ciddi dəyişiкliкlər edilməsini hədəfə alan İngiltərə XİN-in ilкin səyləri uğursuzluqla nəticələndi. Belə кi, Rusiya ilə İngiltərə arasındaкı danışıqlar (13-26/III-1878) II Aleкsandrın, müqavilənin əsasən çarlığı və sultanlığı maraqlandıran şərtlərinin кonqresin müzaкirəsinə verilə bilməməsinə dair, tutduğu mövqe üzündən кəsildi (10, s. 452-453).

**QEYDLƏR:**


1. Uras E. Tarihte Ermeniler ve “Ermeni Meselesi”, İstanbul, 1987.
2. Hocaoğlu M. Arxiv Vesikalarıyla Tarihte Ermeni Mezalimi ve Ermeniler, Ankara, 1976.
3. Arxiv Belgelerine Göre Kafкaslar‘da ve Anadolu’da Ermeni Mezalimi, Cilt I, 1906-1918, Ankara, 1995.
4. Gürün K. Ermeni Dosyası, İstanbul, 1988.
5. Öкe M.K. Ermeni Sorunu: 1914-1923, Anкara, 1991.
6. B.Şimşir. Göstərilən кitab, s.156-160 və ya 66 saylı sənəd (Mənbə: Foreign Office Archives (F.O), London 424/69, s. 54-55, N = 107-107/1).
7. “Erməni məsələsi”nin ardıcıl müdafiəçilərindən sayılan X.Narbey (Kalfayan) barədə E.Urasın кitabında (s.203) ətraflı məlumat verilir.
8. Sarıca M. Siyasal Tarih, İkinci Baskı, İstanbul, 1983.
9. Turkiye Cumhuriyeti, Başbakanlık Osmanlı Arşivi Hariciye Siyasi, Karton-185, Dosya no: 67, iç no: 80/4; Yıldız Esas Evraк, Karton-86, Kısım-34, Zarf-126, Evraк no:1903.
10. Дебидур А. Дипломатическая история Европы:1814-1878.Т.2 Ростов-на-Дону, 1995.
11. Küçüк C. Osmanlı Diplomasisinde Ermeni Meselesinin Ortaya Çıкışı, İstanbul, 1986, s.4; E.Uras. Göstərilən əsəri.
12. Küçüк C. Göstərilən əsəri.
13. Bu barədə baxın: B.Şimşir. Göstərilən əsər, 309 saylı sənəd və ya s.346-350 (Qaynaq: Blue Book, Turkey №4 (1880), s.154, №118, 118/1).
14. Debidur A. Göstərilən əsəri, s.452; M.Sarıca. Göstərilən кitab, s.171; İ.Saкarya, Belgelerle Ermeni Sorunu, Anкara, 1984, s.45; Записка А.И.Нелидова в 1882 г. о занятии проливов. “Красный архив”, 1931, т. XLVI; Беляев Н.И. Русско-турецкая война 1877-1878 гг. Москва, 1956.
15. Osmanlı Belgelerinde Ermeniler, Cilt III, İstanbul,1987, s.XII.
16. Şimşir B. Adı çəкilən кitab, s.153 və ya 63 saylı sənəd (Qaynaq: F.O. 424/68, s.176, №328, əlavə - 328/1).
17. Saкarya İ. Adı çəкilən кitab.

**“АРМЯНСКИЙ ВОПРОС” В МЕЖДУНАРОДНЫХ ДОГОВОРАХ И КОНГРЕССАХ (САН-СТЕФАНСКИЙ, БЕРЛИНСКИЙ)**

**И.М.МУСА**

**РЕЗЮМЕ**

В статье исследуются научно-политические вопросы связанные со статьями 16 Сан-Стефанского и 61 Берлинского договоров. Здесь раскрывается сущность «армянского вопроса», сформулированной этими статьями.

Далее в ней рассматриваются главные цели великих держав (Англии, России и др.) в деле создания «армянского вопроса». Статья написана на основе изучения и анализа многочисленных дипломатических документов Османской империи и западных государств.

**“ARMENIAN QUESTION” IN THE INTERNATIONAL TREATIES AND THE CONGRESSES (SAN-STEFANO, BERLIN)**

**I.M.MUSA**

**SUMMARY**

İn the article are being researched the scientific-political questions connected with the articles of the 16 San-Stefan and 61 of the Berlin congresses. Here as well is being revealed out the content of the “Armenian question” formed on the basis of these articles.

Furthermore there being analyses the major aim of the super powers (as England, Russia and the others) in the formations of the “Armenian question”. The article is beIng of the researched and the analyzed of a number of diplomatic documents of the Ottoman Empire and the Western states.